**Vüqar CAMALZADƏ**
BMA-nın dosenti,
Əməkdar Artist, bəstəkar
Ünvan: Bakı, Şəmsi Bədəlbəyli 98
E-mail: vugarjamal1974@gmail.com

DOI: 10.62440/AMK2025-1.s.86-96

# SƏFİƏDDİN URMƏVİNİN “ƏDVAR-SİSTEMİ” VƏ MÜASİR MUSİQİ PRAKTİKASINDA “DÖVRİ-SƏDA” MODELİ

***Xülasə:*** *Məqalədə Şərq alimlərinin elmi risalələri nəzərdən keçirilmişdir. Burada Əl-Fərabinin, S.Urməvinin, Ə.Marağayinin elmi traktatlarından bəhs edilmiş, eləcə də onların musiqi nəzəriyyəsi, ədvar (dairəvi) sisteminin forma və strukturu izah olunmuşdur. Məqalədə həmçinin ədvarın (dairəvi sistemin) müasir tətbiqinə əsaslanmış “Dövri-Səda” layihəsindən söz açılmışdır.*
***Açar sözlər:*** *riyazi struktur, fəlsəfi mahiyyət, “Ədvar” (“dairələr”), musiqi nəzəriyyəsi, məqam, ritm, struktur, fəlsəfə*

Qədim Şərq musiqi nəzəriyyəsinin ən parlaq simalarından biri olan Səfiəddin Urməvi (1216-1294) XIII əsrdə yazdığı traktatlarla təkcə musiqi elminin deyil, eyni zamanda bədii-fəlsəfi düşüncənin formalaşmasında mühüm rol oynamışdır. Onun “Kitabül-Ədvar” və “Şərəfiyyə” risalələri Şərq musiqisinin təməl nəzəri mənbələri sırasında yer alır. Urməvinin musiqi təlimi dairəvi zaman, riyazi struktur və fəlsəfi mahiyyət prinsipləri əsasında qurulmuşdur. Bu məqalənin məqsədi Ədvar sistemini təhlil edərək, onu Fərabi kimi klassik müəlliflərin fikirləri ilə müqayisə etmək və müasir dövrdə “Dövri-Səda” layihəsi nümunəsində tətbiq imkanlarını araşdırmaqdır ki, indiyədək bu üsuldan yeni dövr musiqi və mahnılarımızda istifadə olunmamışdır.

## 1. Tarixi-konseptual kontekst: Fərabi və Urməvinin musiqi nəzəriyyəsi

Fərabi (870-950) İslam dünyasında musiqi nəzəriyyəsi sahəsində ən mühüm fiqurlardan biridir. Onun “Kitab əl-Musiqa əl-Kəbir” (Böyük musiqi kitabı) əsəri, musiqinin fəlsəfi və riyazi əsaslarını sistemli şəkildə təqdim edən ilk külliyyatlardandır. Fərabi musiqini ruhun tərbiyəsi, cəmiyyətin harmoniyası və kainatın ahəngi ilə əlaqələndirərək onu həm praktiki, həm də metafizik bir sənət kimi təqdim etmişdir.

Fərabinin təsnifatında səs, intonasiyalar (*lahn*), məqamlar və ritmlər riyazi modellərlə ölçülmüşdür. O, "Kitab əl-Musiqa əl-Kəbir" əsərində musiqini kainat

harmoniyasının təcəssümü kimi təqdim edir. (KİTABU'L MÜSİKA'L-KEBİR. Türksoy 2022) Onun fikrincə, səslərin riyazi nisbətləri (Pifaqorun qanunlarına uyğun) insan ruhuna təsir edir və cəmiyyətin əxlaqi tarazlığına kömək edir. Bu çərçivədə Fərabi üç başlıca təməl ölçü alaraq öz nəzəri baxışını formalaşdırıb:

- Ptolemey və Aristotelin akustika nəzəriyyələrini şərq təfəkkürünə uyğunlaşdırdı.
- Məqamların emosional təsirini sistemləşdirdi (məs., Rast məqamı – nəşə, Segah – kədər).
- Ritmi zamanın fəlsəfi kateqoriyası kimi şərh etdi.

Səfiəddin Urməvi bu irsi davam etdirərək onu daha sistemli və praktik modellərə çevirmişdir. Ədvar sistemi bu inkişafın zirvəsi kimi qiymətləndirilə bilər. Əgər Fərabi səsin təbiəti və təsnifatında Aristotel və Ptolemeyə əsaslanırdısa, Urməvi həmin nəzəriyyələri konkret musiqi strukturlarında tətbiq edərək, icra və bəstə prinsiplərinə inteqrasiya etmişdir.



**Səfiyəddin Urməvi “Kitab-ul Ədvar”**

## 2. Ədvar sisteminin forma və strukturu

“Ədvar” sözü ərəbcə “dairələr” mənasını verir və musiqinin zaman-məkan ölçüsünü dairəvi şəkildə təqdim edən bir modeldir. Ədvar sistemində zaman düz xətt üzərində deyil, davamlı fırlanan və yenidən başlanğıca qayıdan bir spiral kimi qəbul olunur. Urməvi bu anlayışa əsasən musiqini strukturlaşdırır və onun əsas elementlərini dairəvi modellərlə izah edir. Bu struktur üç əsas sahəni əhatə edir:

– Təməl dairələr (*dairəyi-kübra* və *dairəyi-suğra*) – bu dairələrdə əsas səslər və onların düzülüşü, yəni nəğmələr (səslər) və *eşkalat* (interval strukturları) yer alır.

*Dairəyi-Kübra və Dairəyi-Suğra:*

Bu iki dairə Urməvinin sistemində səs və məqam strukturlarının əsasını təşkil edir.

• *Dairəyi-Kübra* (Böyük dairə): Musiqidə bütün əsas səslərin (nəğmələrin) və onların intervallarının tam təsnifini ehtiva edir. Bu dairədə 17 əsas səs müəyyən edilir. Səslər arasındakı məsafələr, yəni intervallar konkret riyazi münasibətlərə əsaslanır və bu, həm akustik uyğunluğu, həm də estetik tarazlığı təmin edir. *Dairəyi-Kübra* bütövlükdə səslərin kosmik və harmonik yerləşimini göstərən sxematik modeldir.

• *Dairəyi-Suğra* (Kiçik dairə): Bu dairə konkret məqamların və melodik strukturların formalaşmasını əks etdirir. Dairəyi-Suğra praktik musiqi istifadəsi üçün nəzərdə tutulmuşdur və bu çərçivədə səslərin funksional rolları, məqamdakı hərəkətləri və keçid imkanları izah olunur.

Bu dairələr həm nəzəri təhlildə, həm də icra prosesində musiqinin struktur əsaslarını təşkil edir. Bu yanaşma musiqini yalnız eşidilən səs kütləsi deyil, həm də riyazi və fəlsəfi baxımdan əlaqəli bir sistem kimi anlamağa imkan verir.

– Məqam dairələri. Bu istiqamətdə Urməvi musiqidə 12 əsas məqam və 6 şöbə (*avazə*) müəyyənləşdirib. Hər bir məqam ayrı bir dairədə təhlil olunur, bu dairədəki hər səs öz funksiyası və enerjisilə müəyyən edilir ki, bu da zamanın müxtəlif anlarında səsin insan orqanizminə təsiri ilə bağlıdır.

– İcra dairələri. Bunlar musiqi ifasında istifadə olunan vəznlər (ritmik şablonlar), bərdaştlar (istinad səslər) və giriş-çıxış quruluşu ilə bağlıdır.



**Daireyi-kübra və daireyi-zəhra**

***–Buud sistemi və eşkalat***

Buud, yəni interval ölçüləri Ədvar sisteminin ən vacib elementlərindəndir. Urməvi səslər arasındakı məsafələri “*kamil*”, “*natamam*”, “*mütəqəddim*” və “*mübtədi*” kimi təsniflərlə izah etmişdir. Bu, səsin emosional və funksional təsirini müəyyənləşdirən riyazi-intonasiya sistemidir.

- *Kamil buudlar* – mükəmməl interval uyğunluğu (məsələn, kvarta və kvinta-3/2)
- *Natamam buudlar* – daha zəif harmonik uyğunluqlar (məsələn, kiçik və böyük ters-6/5)
- *Mübtədi* – sadə başlanğıc intervallar (yarımton)
- *Mütəqəddim* – yüksək gərginlik və inkişaf üçün istifadə olunan məsafələr

*Buud* anlayışı yalnız interval texnikası deyil, həm də emosional və ekspressiv dəyərləndirmə funksiyasını daşıyır. Burada təbiətin və digər kənar təsirlərin nəticəsində səsin əyilməsi və tonların dəyişməsindən söz açılır. Bu sistem Əbdülqadir Maragayinin “Məqasidül-Əlhan” əsərində əks olunub.

Əsas anlayışlar çərçivəsində musiqidə nəğmələr, *eşkalat*, *bərdaşt*, *şədd*, *təkrar* və *vəzn* nəzərdə tutulur:

– Nəğmələr – Yeddi əsas səs və onlarla bağlantılı əlavə səsləri əhatə edir. Bu səslərin nizamı və uyğunluğu dairə üzərindən tərtib olunub.

– Eşkalat – Musiqidə interval sistemlərini ifadə edir. Urməvi bu intervalları “kamil”, “natamam”, “*mübtədi*” və “*mütəqəddim*” kimi təsnif etmişdir.

– Bərdaşt ifa sırasında istinad nöqtəsi olan sabit səsin ifadəsidir.

– Şədd və Təkrar isə musiqinin strukturundakı gərginlik və sakitləşmə mərhələlərini əks etdirir.

## 3. Məqam və ritm: struktur və fəlsəfi təzahürlər

Urməvi 12 əsas məqam və 6 avazəni sistemləşdirmişdir. Bu məqamlar öz aralarında dairəvi münasibətlərlə əlaqələndirilir. Hər məqamın öz energetik strukturu, emosional çaları və bərdaşt səsləri vardır. Məqamlar arasında keçidlər və onların formalaşdırdığı melodik xəritə Ədvar sisteminin mərkəzi komponentidir.

Ritm (vəzn) sistemi də dairə prinsipinə uyğun qurulub. “*Zərb*”, “*tavil*”, “*xafif*”, “*hazəc*” kimi ritmlər spesifik strukturla təşkil olunur və hər biri musiqinin zaman içində dövri şəkildə necə inkişaf etdiyini göstərir. Ritmin bu şəkildə qurulması musiqidə zamanın fəlsəfi açıqlamasını ifadə edir, yəni xronologiyanı deyil, metafizik ahəngi ölçü alır.



**Buudların bölünməsi**

### 4. "Dövri-Səda" layihəsi və Ədvarın müasir tətbiqi

Fikirlərimizin mərkəzində şəxsi musiqi pratikamda mühüm yer tutan "Dövri-Səda" anlayışının dayandığını vurğulamaq istəyirəm. Bir layihə kimi bu mənim üçün təkcə musiqi əsəri deyil, həm də konseptual və nəzəri bir axtarışın nəticəsidir. "Dövri-Səda" layihəsi, on klassik Azərbaycan şairinin qəzəllərinə əsaslanan və Urməvinin Ədvar sisteminə uyğun qurulmuş musiqi silsiləsidir. Layihənin məqsədi yalnız poetik-musiqi sintezi yaratmaq deyil, həm də musiqidə zaman və məkanın ənənəvi fəlsəfi anlamlarını diriltməkdir.

Layihədə təmsil olunan şairlər Nizami (1141-1209), Xaqani (1121-1199), Füzuli (1494-1556), Nəsimi (1369-1419) , Şah İsmayıl Xətai (1487-1524), Molla Pənah Vaqif (1717-1797), Qasım bəy Zakir (1784-1857), Mir Möhsün Nəvvab (1833-1918), Xurşidbanu Natəvan (1832-1897) və Mir Həmzə Nigaridir (1805-1886). Hər biri fərqli dövrə, ayrı poetik ahəngə malik olsa da, onları birləşdirən ortaq xətt bəstələdiyim musiqi fraqmentlərində eyni musiqi nəzəri strukturuna malik olmalarıdır.

Bu layihədə kompozisiyalar giriş (məqam daxil olması), inkişaf (*şədd*), sabitləmə (bərdaşt) və nəticə (təkrar) mərhələləri ilə, dairəvi musiqi forması üzrə qurulub. Musiqinin sonunda başlanğıca qayıdış ("təkrar") estetik və fəlsəfi tamamlanmanı simvollaşdırır. Bu yanaşma həm dinləyicidə, həm də ifaçıda zamanın klassik qavrayışına dönüş hissi oyadır.



**14 iyul 2023 Şuşa şəhəri. "Vaqif poeziya günləri" çərçivəsində baş tutan "Dövri-Səda" konsertindən**

Əsərlərdə həm vokal, həm də instrumental baxımdan ifaçılara sərbəstlik verilir. Bu sərbəstlik, əvvəlcədən müəyyən olunmuş struktur çərçivəsində improvizasiya imkanlarını qoruyur. Yəni "dairənin içində sərbəstlik" modelini təqdim edir. Bu, həm də muğam ifaçılığı ilə əla uyğunlaşır. Muğam anlayışımızda bu sistemin uyğunluğu mühüm rol oynayır. Belə ki, muğamlar dövri nizama söykənir. Şöbələr arasında keçidlər, sonda rast məqamına qayıdış bu strukturu dəstəkləyir. "Dövri-Səda" layihəsində həm vokal, həm instrumental dillə bu forma qorunub saxlanılmışdır. Azərbaycanın seçilmiş muğam ifaçılarının iştirakı ilə ərsəyə gəlmiş "Dövri-Səda" silsiləsinin ilk təqdimatı mədəniyyət paytaxtımız olan Şuşa şəhərində "Vaqif poeziya günləri" çərçivəsində (14.07.2023) keçirilmişdir. Xalq artistləri – Nəzakət Teymurova, Teyyub Aslanov, Əməkdar Artist Fərqanə Qasımova, xanəndələr – Hüseyn Məlikov, Rövşən Məmmədov, Aysel İbrahimova, İlkin Dövlətov, Səbinə Ərəbli silsilədə təqdim olunan musiqi nümunələrinin ilk ifaçılarıdırlar. Xalq artisti Munis Şərifovun rəhbərliyi ilə "Qədim musiqi alətləri" ansamblının müşayiəti və səslənməsi musiqiyə xüsusi rəng qatmışdır. Konsertdə iştirak edən çoxsaylı yaradıcı insanlar və mötəbər qonaqlar tərəfindən ifa edilən musiqi nömrələri yüksək dəyərləndirilmiş və alqışlarla qarşılanmışdır.



**14 iyul 2023 Şuşa şəhəri. "Vaqif poeziya günləri" çərçivəsində baş tutan "Dövri-Səda" konsertindən**

Bu layihə Azərbaycan Mədəniyyət Nazirliyinin təklifi ilə "Şuşa İslam Mədəniyyət Paytaxtı" günləri çərçivəsində həmin ilin oktyabr ayında yenidən Şuşa şəhərində təqdim olunmuşdur. Türkdilli dövlətlərin Mədəniyyət nazirləri və digər

mötəbər qonaqların iştirak etdiyi həmin konsert alqışlarla yekunlaşdıqdan sonra bizə və digər musiqiçilərə xoş sözlər söylənildi.



Daha sonra Hindistanın Dehli şəhərində keçirilən Beynəlxalq "Ravi Şankar" festivalında (11.02.2024) Azərbaycanın görkəmli musiqiçiləri və xanəndə İlkin Dövlətovun ifası ilə konsertimiz olmuşdur. Festivalda iştirak edən, Hindistanın ən peşəkar və tanınmış musiqiçiləri, rəqqasları və müğənniləri tərəfindən bu silsilənin musiqi nümunələri yüksək qiymətləndirilmiş və böyük marağa səbəb olmuşdur.



**11 Fevral 2024-cü ildə Hindistanda "Ravi Şankar" beynəlxalq festivalında çıxış**

Layihənin əsas fərqləndirici cəhətlərindən biri, həm ifaçı, həm də dinləyici üçün zaman duyğusunu dəyişdirməsidir. Dövri formalar insanı xronoloji zaman

hissindən ayıraraq onu musiqi içində fırlanan, yenidən doğulan səs spiralına daxil edir. İfaçılar üçün bu, həm texniki, həm də emosional olaraq fərqli təcrübə yaradır. Belə ki, sadə linear quruluşlardan fərqli olaraq, burada musiqi prosesində zamanın ritmik və fəlsəfi çəkisi təsirlidir.

Texnologiyanın və fərqli estetik tələblərin hökm sürdüyü müasir dövrdə qədim sistemə istinad etməyin nə dərəcədə aktual olması sual yarada bilər. Mənim qənaətimə görə, klassik sistemlərin yenidən oxunması, onların çağdaş dillə tərcüməsi müasir musiqinin həm formasına, həm də ruhuna yeni nəfəs gətirməkdədir. Dövrü-Səda layihəsi məhz bu məqsədə hədəflənmişdir. İndiyə qədər bu istiqamətdə bəstələdiyim musiqi nümunələri vokal-instrumental formada olmuşdur. Artıq sırf instrumental kompozisiyaların istər milli musiqi alətlərimiz, istərsə də Avropa alətləri üçün bəstələnməsini qarşıma məqsəd qoymuşam.

**5. Ədvar və Muğam: uyğunluq və inteqrasiya**

Ədvar sisteminin muğamla paralelliyi ilk baxışdan nəzərə çarpır. Muğamın şöbə strukturu, bərdaşt səslərinə əsaslanması, improvizasiya çərçivələri və Rast məqamına qayıdış Ədvarın məqam və ritm modelinə tam uyğun gəlir. "Dövri-Səda" layihəsi bu uyğunluğu qoruyaraq, klassik musiqi nəzəriyyəsi ilə müasir muğam ifaçılığını birləşdirir. Bu, həm də Urməvinin nəzəri modelinin XXI əsr musiqi formasına inteqrasiyasını nümayiş etdirir. İstər xalq musiqisində, istərsə də simfonik, audiovizual, elektron, caz, rəqs və s. janr musiqidə bu konsepti tətbiq etməklə maraqlı, özümüzə məxsus və yeni səslənməyə gətirib çıxaran musiqi nümunələri almaq olar ki, nəticədə Azərbaycanımızın möhtəşəm musiqi ənənələrini bütün dünyada yeni nəfəslə təbliğ etmək imkanı yaranar. Universal və çoxşaxəli bir dil olan "Ədvar" sistemi hər zaman yeni və maraqlı musiqi nümunələrinin yaranmasına rəvac verir. Böyük Üzeyir bəyin tövsiyə etdiyi yol da məncə elə bu idi.

Musiqi qədim Şərqdə heç vaxt təkcə sənət sayılmayıb – o, bir vasitə idi. Musiqi ilə ruh saflaşar, varlıq aydınlaşar, bəzən hətta bədən sağalardı. Bunu sufilər bilirdi, bunu qədim yunanlar da anlayırdı. Musiqi – kainatın qanunlarını anlamağın simvolu idi. Çünki kainatın özü də səsdən, nizamdan, titrəyişdən ibarətdir. Musiqi bu ritmi duymadır. İlahi musiqi isə – səssizliyin içindəki Sözdür.

Musiqidəki möcüzə, Pifaqorun kainatla əlaqələndirdiyi kosmik harmoniya ilə səsləşir. Pifaqor üçün musiqi, kainatın riyazi ölçülərlə qurulan bir modeliydi – yəni musiqi bir tərəfdən qüsursuz nizam, digər tərəfdən isə ilahi ilham idi. Bu fikir, Şərqdə də musiqi fəlsəfəsinin təməlində dayanır: muğamın və ya ədvar sisteminin strukturları yalnız estetik yox, həm də kosmoloji anlamlar daşıyır. Musiqi burada sadəcə səs düzümü yox, haqqın nəfəsi olur.



**Rövşən Məmmədov**



**Fərqanə Qasımova**



**Hüseyn Məlikov**



**Nəzakət Teymurova**



**Səbinə Ərəbli**



**Teyyub Aslanov**









## 6. Nəticə və yekun dəyərləndirmə

Səfiəddin Urməvinin Ədvar sistemi yalnız keçmişin nəzəriyyəsi deyil, zaman və səs münasibətini izah edən bədii-fəlsəfi modeldir. Fərabi ilə başlayan bu xətt Urməvidə konkretləşmiş, musiqi fəlsəfəsi və texnikasını sintez etmişdir. Eyni zamanda insanın hər dövrdə dəyişməyən ruhi bütünlüyünün, psixoloji ehtiyaclarının və zaman qavrayışının musiqiylə metafizik bağlılığını əks etdirən bədii və riyazi əsasıdır. Biz klassik nəzəriyyələri bu gün arxiv materialı kimi deyil, eyni zamanda yaradıcı ilham mənbəyi kimi qavrasaq, həm musiqi elmi, həm də ifaçılıq sənəti yeni mənalar qazanacaqdır. Bu baxımdan "Dövri-Səda" təkcə bir layihə deyil, həm də bir mesajdır: dərin keçmişimizi bu günlə birləşdirmək və gələcəyə öz yeni baxışımızı təklif etmək istiqamətində çağırışdır.

"Dövri-Səda" layihəsi göstərir ki, bu sistem hazırda da aktualdır və yaradıcı tətbiqlərlə çağdaş musiqi formalarına yeni nəfəs verə bilir. Ədvar sisteminə bu gün yaradıcı və aktual bir ilham mənbəyi kimi yanaşmaq vacibdir. Musiqidə təkcə səs deyil, zamanın özü də ifadə olunur. Bu baxımdan, Ədvar sistemi bizi zamanın mahiyyətini, onun dövri təbiətini və musiqi vasitəsilə ruhi bütövlüyümüzü anlamağa dəvət edir. Məqaləni yekunlaşdırarkən demək istəyirəm ki, biz musiqidə təkcə səsləri deyil, həm də zamanın bütünlüyünü ifadə edirik. Ədvar sistemi bizə zamanın mahiyyətini, hərəkət qaydalarını, həmişə yenidən təzahür edən varlıq prinsipinin mahiyyətini anlamaq və bunu ruhən yaşamaq hissi verir.

**ƏDƏBİYYAT:**

1. Axundova, E. Əl-Fərabi Yaradiciliğinda Elmi-Tətbiqi Musiqi Nəzəriyyəsi. // Rast Müzikoloji Dergisi. Yıl 2016, Cilt: 4 Sayı: 2, s.1254 – 1258.
2. Əl-Fərabi. Kitab əl-Musiqa əl-Kəbir. Kitab əl-Ədvar. Azərbaycan musiqi tarixi (redaktor Z.Səfərova). I cild. – Bakı: Şərq-Qərb, – 2012, – 592 s. (Bax: s. 231-235)
3. Səfiyəddin Urməvi. Kitab əl-Ədvar. Azərbaycan musiqi tarixi (redaktor Z.Səfərova). I cild. – Bakı: Şərq-Qərb, – 2012, – 592 s. (Bax: s. 269-282)
4. Əbdul Qadir Marağayi. Camiül-Əlhan. Kitab əl-Ədvar. Azərbaycan musiqi tarixi (redaktor Z.Səfərova). I cild. – Bakı: Şərq-Qərb, – 2012, – 592 s. (Bax: s: 304-312)
5. Karaman, S., Akbulut, Y. Biçim ve Usûl Açısından Abdülkâdir Merâgî'nin Kârları // Türkiyat araştırmaları dergisi. Türkiye, 2009. Sayı: 26, s.379-408
6. Mir Möhsün Nəvvab. Vüzuhül-Ərqam. Kitab əl-Ədvar. Azərbaycan musiqi tarixi (redaktor Z.Səfərova). I cild. – Bakı: Şərq-Qərb, – 2012, – 592 s. (Bax: s. 422-441)
7. Mehmet Nuri Uygun. Kitabü'l-Edvar Safiyüddin Urmevi. İstanbul, Baskı, 2019. 436 s.
8. Шамилли Г.Б. Философия Музыки. Теория и практика искусства maqam. (Ред. Кузнецов И.К.) Садра, 2020. 552 с.
9. "Dövri-Səda" layihəsinin arxiv materialları. URL: https://apa.az/culture-policy/susada-anslaqla-kecen-dovru-seda-konsert-proqrami-foto-776926

**Saytoqrafiya:**

10. URL:https://azertag.az/xeber/susada_dovri_seda_adli_konsert_proqrami_teqdim_olunub-2695288
11. URL:https://oxu.az/medeniyyet/susada-dovri-seda-adli-konsert-proqrami-teskil-edilib-foto
12. URL:https://axsam.az/news/163235-susadaki-dovri-seda-adli-konsertden-fotolar
13. URL:https://www.youtube.com/watch?v=Bkn6Q9srrY8
14. URL:https://cenublu.az/sizi-maraqlandiran/hindistanda-kecirilan-beynalxalq-festivalda-ilkin-dovlatov-olkamizi-tamsil-edib/

**Вугар ДЖАМАЛЗАДЕ**
Заслуженный деятель искусств, доцент, композитор.

**«СИСТЕМА АДВАРА» САФИЕДДИНА АЛЬ-УРМАВИ И МОДЕЛЬ «ПЕРИОДИЧЕСКОГО ЗВУКА» В СОВРЕМЕННОЙ МУЗЫКАЛЬНОЙ ПРАКТИКЕ**

***Аннотация:*** *В статье рассматривается научные трактаты восточных учёных. Здесь обсуждались научные трактаты Аль-Фараби, С. Урмави, А. Мараги, объяснялась их музыкальная теория, форма и строение адварной (круговой) системы. В статье также обсуждается проект «Доври-Сада», в основе которого лежит современное применение адвара (круговой системы).*

***Ключевые слова:*** *математическая структура, философская сущность, «Адвар» («круги»), теория музыки, модус, ритм, структура, философия*

**Vugar JAMALZADE**
Honored Artist, Associate Professor, Composer

**“ADVAR SYSTEM” OF SAFIEDDIN AL-URMAVI AND THE MODEL OF “PERIODIC SOUND” IN CONTEMPORARY MUSICAL PRACTICE**

***Abstract:*** *The article examines scientific treatises of Eastern scholars. Here, scientific treatises of Al-Farabi, S. Urmavi, A. Maragai were discussed, their musical theory, form and structure of the advar (circular) system were explained. The article also discusses the project "Dovri-Sada", which is based on the modern use of advar (circular system).*

***Keywords:*** *mathematical structure, philosophical essence, "Advar" ("circles"), music theory, modus, rhythm, structure, philosophy*

**Rəyçilər**: sənətşünaslıq üzrə elmlər doktoru, dosent Gültəkin Şamilli
professor Aydın Əzimov